# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

Az 7000, Naxçıvan şəhəri,
İslam Səfərli küçəsi 43.

Tel: (+99436) 545 08 27 Faks: (+99436) 544 52 96
E-poçt: office@nmsk.gov.az

**Q Ə R A R**

**№ SQ-02/2024-3**

**Naxçıvan şəhəri** **1 iyul 2024-cü il**

**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərinin keçirilməsi dövründə fəaliyyət göstərəcək 5 nəfərdən ibarət ekspert qrupunun yaradılması haqqında**

Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü, 98-1.1-ci maddələrinə əsasən

**q ə r a r a a l ı r :**

1. Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan verilmiş şikayətlərin araşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərinin keçirilməsi dövründə fəaliyyət göstərəcək 5 nəfərdən ibarət aşağıdakı tərkibdə ekspert qrupu yaradılsın:

Xatirə İbrahimli - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası sədrinin müavini;

Şamxal Məmmədov - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

Arif Ağayev - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

Şəhla Şirəliyeva - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

Əkrəm Hüseynzadə - Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü;

2. Dairə seçki komissiyaları təşkil edildikdən dərhal sonra dairə seçki komissiyalarının nəzdində müvafiq tələblərə cavab verən 3 nəfərdən ibarət tərkibdə ekspert qruplarının yaradılması həmin seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** Əjdər Əliyev

**Katib:** Əkrəm Hüseynzadə